**Respublika**. - 2024.- 27 noyabr. - № 261. - S. 1,6.

# Dayanıqlı və "yaşıl" həyata zəmin yaradıldı

**Bayram Salmanov**

**Həyata keçirilən məqsədyönlü və praqmatik siyasət nəticəsində müstəqil Azərbaycan dünyada sayılıb-seçilən, nüfuzlu və qüdrətli ölkələrdən biridir.**

2023-cü ilin dekabrında 200-ə yaxın dövlətin yekdil qərarı ilə BMT-nin ən böyük tədbirlərindən biri olan COP29 iqlim konfransına ev sahibliyi hüququnun dövlətimizə verilməsi ölkəmizin beynəlxalq səviyyədə yüksək nüfuz qazandığını bir daha təsdiqlədi. Son 2 həftə ərzində isə rəsmi Bakı COP29-u yüksək səviyyədə keçirməklə növbəti böyük uğura imza atdı. Genişmiqyaslı, planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına, eləcə də təxribatlara, siyasi-psixoloji təzyiqlərə baxmayaraq, rəsmi Bakı iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

Bakı indiyədək bir çox mühüm beynəlxalq tədbirə ev sahibliyi edib, bu tədbirlərdə özünəməxsus yüksək standartlar müəyyənləşdirib və sonradan bunlar bütün dünyada nümunə kimi qəbul olunub. Beynəlxalq birliyin etimadını böyük məsuliyyət kimi qəbul edən Azərbaycan COP29-a təxminən bir il ərzində yüksək səviyyədə hazırlıqlar həyata keçirdi. Bu, həm də ölkəmizin artan iqlim çağırışlarına həssas yanaşmasını ifadə edir. Çəkilən böyük zəhmət, dünyanın mühüm qlobal tədbirinə məsuliyyətli yanaşma öz bəhrəsini verdi. Belə ki, COP29-un yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, respublikanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi. Rəsmi Bakı noyabrın 11-də başlayan və qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, xüsusilə də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etdi və genişmiqyaslı tədbirin öhdəsindən uğurla gəldi. Dövlətimiz inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi.

COP29 ölkələrə yüz milyardlarla dollar kimi böyük məbləğlərdə yardım etməsi ilə bağlı Azərbaycan kəskin qlobal qütbləşməyə baxmayaraq, müzakirələrin axarını ortaq mövqeyə doğru yönləndirə bildi və məntiqi sonluğa gətirib çatdırdı. Dövlətimiz COP29-a sədrlik edən ölkə kimi yüksək peşəkarlıq və fədakarlıq göstərdi. Beləliklə də Bakı Maliyyə Məqsədi və BMT karbon bazarları üzrə əldə edilmiş irəliləyişlər gözləntiləri üstələdi. COP29-da müzakirələrin ilkin olaraq 200 milyard dollar ətrafında getməsinə baxmayaraq, rəsmi Bakının uğurlu moderatorluğu ilə 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə hər il 300 milyard ABŞ dolları məbləğində yardım göstərilməsi haqda yekun qərar qəbul olundu. Məhz belə bir mürəkkəb maraqlar labirintinin içindən ildə 300 milyard dollarlıq maliyyə qərarı ilə çıxmaq iqlim diplomatiyasının ən üst səviyyəsi sayılmalıdır.

Onu da qeyd edək ki, COP29-da qəbul edilmiş qərarlar qlobal iqlim maliyyəsi arxitekturasını dəyişəcək. Qəbul edilmiş Bakı Maliyyə Məqsədi ilə yanaşı, yüksək inteqrasiya edilmiş karbon bazarlarına dair Paris Sazişinin 6-cı maddəsi üzrə danışıqların yekunlaşması üçün on il davam edən gözləntiyə də son qoyuldu və bu məsələ tam şəkildə Bakıda razılaşdırıldı. Eyni zamanda Azərbaycan COP29 çərçivəsində Zərər və İtki Fondunu işə salmağa, fondun 2025-ci ildə maliyyə vəsaitini paylaşdırmağa hazırlaşmasına müvəffəq oldu.

Bakının ev sahibliyi etdiyi tədbir COP tarixində nəticəyönümlü konfranslardan biri kimi qalacaq. Tədbir çərçivəsində aparılan aktual müzakirələr, qəbul olunan mühüm qərarlar, həmçinin dünya miqyasında konfransa göstərilən böyük maraq bu işin yüksək peşəkarlıqla həyata keçirməsinin nəticəsidir. COP29-a 80 dövlət və hökumət başçısı, bütövlükdə qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçı qatıldı. Cənab Prezident İlham Əliyev daha mütərəqqi cəmiyyətlər, daha firavan ölkələr və fəsadsız sabahlar üçün dünyanın əksər dövlət və hökumət başçıları ilə birlikdə çox yüksək səviyyədə önəmli müzakirələr apardı.

Azərbaycanın qlobal aləmdə ən mühüm tədbirlərdən olan COP29-a ev sahibliyi bir sıra cəhətləri ilə əvvəlkilərdən fərqləndi. Dövlətimizin ciddi hazırlaşıb, məsuliyyətlə başlayıb, uğurla yekunlaşdırdığı bu möhtəşəm beynəlxalq tədbir ölkəmiz üçün əhəmiyyətli, xalqımız üçün isə səmərəli oldu. Birmənalı şəkildə deyə bilərik ki, Azərbaycanın diplomatik mövqeyinin güclənməsi cəmiyyətin tərəqqisi üçün önəmli olan konfrans həm də dünyada dayanıqlı və "yaşıl" gələcək qurulmasına zəmin yaratdı.

Azərbaycanın bərpaolunan enerji potensialı COP29-da diqqət mərkəzində oldu. Ölkəmiz Xəzər dənizi və quru ərazilərində ümumilikdə 292 giqavat bərpaolunan enerji ehtiyatlarına malikdir. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın "yaşıl enerji" zonası elan edilməsi COP29 iştirakçılarının xüsusi rəğbətinə

səbəb oldu. Eyni zamanda beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən layihələr arasında Cəbrayılda bp ilə Günəş enerji stansiyasının tikintisi, BƏƏ-nin "Masdar" şirkəti ilə Günəş enerjisi layihəsi və Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti ilə külək enerjisi layihələri xüsusi qeyd olundu. Həmçinin Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılan enerji kabeli layihəsi Azərbaycanın Avropaya "yaşıl enerji" ixracını təmin edəcək. Bu layihə dövlətimizin enerji təhlükəsizliyi strategiyasını gücləndirəcək və ölkənin Avropadakı tərəfdaşlarla əməkdaşlığını daha da möhkəmləndirəcək. Məhz COP29 zamanı Azərbaycan enerji və ekoloji siyasətdə əldə etdiyi uğurları nümayiş etdirdi. Tədbirdə Bakı Qlobal İqlim Şəffaflığı Platformasının yaradılması təşəbbüsü irəli sürüldü ki, bu da beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün vacib addımdır. Heç şübhəsiz, Azərbaycanın "yaşıl enerji" ixracına dair təşəbbüsləri və beynəlxalq tərəfdaşlarla əldə etdiyi razılaşmalar ölkənin iqtisadi inkişafına mühüm töhfə verəcək. Xüsusilə bp ilə Səngəçal terminalında dekarbonlaşma layihəsi və "yaşıl enerji" ixracına yönəlmiş təşəbbüslər uzunmüddətli ekoloji strategiyanın əsasını təşkil edir.

Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan həm regional, həm də qlobal səviyyədə davamlı inkişafın təmin edilməsinə töhfə verir. Dövlətimizin iqlim dəyişmələri ilə mübarizədə təşəbbüsləri və enerji təhlükəsizliyinə yönəlmiş strategiyaları dünya səviyyəsində yüksək qiymətləndirilir. Gələcəkdə bu layihələr Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə çatmasında mühüm rol oynayacaq.

COP29-un ölkəmizdə keçirilməsi bütün ölkələr üçün əhəmiyyətli olsa da, ən çox dövlətimizin maraqlarına cavab verdi. Çünki 44 günlük İkinci Qarabağ müharibəsində şanlı qələbəmizdən sonra Azərbaycanın yaratdığı yeni reallıqlara xor baxanlar rəsmi Bakının ünvanına cəfəngiyyatlar səsləndirir, təzyiq və təhdidlərlə çıxış edirdilər. COP29 həmin "xor" kapellasına cavab vermək baxımından çox səmərəli oldu. İşğalçı Ermənistana himayədarlıq edən siyasi dairələr gördülər ki, Azərbaycan, sözün həqiqi mənasında, güclü dövlətdir. Konfrans yalnız iqlim dəyişmələri ilə bağlı aktual məsələlərin müzakirə platforması kimi yox, həm də ölkələrin haqq səslərinin eşidilməsi, onların birgə əməkdaşlıq şəbəkələri qurması baxımından da əhəmiyyətli oldu. Beynəlxalq iqlim sammitində rəsmi Bakı qlobal problemlərin həllində sözdə deyil, əməldə də fəal olduğunu sübut etdi və ölkəmizin əksər dövlətlər tərəfindən etibarlı tərəfdaş kimi qəbul edildiyi bir daha təsdiqləndi. Bütün tərəflərin yekdilliklə COP29-un yüksək səviyyədə təşkilinə görə dövlətimizə rəsmi şəkildə təşəkkür barədə qərar qəbul etməsi bunun əyani göstəricisidir.

COP29 tədbirində iqlim dəyişmələrinə qarşı mübarizədə mühüm razılıqlar əldə edildi. COP29 sübut etdi ki, Azərbaycanın mövqeyi yalnız iqtisadi gücə və regional əhəmiyyətə deyil, həm də qlobal siyasətdə oynadığı fəal rola əsaslanır. Məhz bu baxımdan da COP29 Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırmaqla yanaşı, ölkənin ekoloji, iqtisadi və diplomatik sahələrində yeni perspektivlər açdı. Bu tarixi hadisə bir daha göstərdi ki, Azərbaycan qlobal problemlərin həllində mühüm tərəfdaş və liderdir.